Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Uşaqlar sabahımızın təminatıdır..**

**1-iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait**

**Bakı-2022**

**Tərtibçi:** **Ülkər Cabarova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**“Uşaqlar sabahımızın təminatıdır”.– 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 51s.**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

1 iyun Uşaqların Beynəlxalq Müdafiə günüdür. Uşaq insan ömrünün bəzəyi, ailənin səadəti, xalqın sabahıdır. “Uşaqlar bizim gələcəyimizdir” deyimi də çox səslənmiş, olsa belə, həmişə, bütün zamanlarda aktual və mənalıdır.

Dövlətimiz hər zaman öz qayğısını uşaqlardan əsirgəməmiş, körpələrin azad, firavan yaşaması üçün həmişə zəruri addımlar atılmışdır. Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Sabahımız olan uşaqlara qayğı və diqqət hər bir dövlətin siyasətində önəmli yer tutur, çünki hər bir xalqın, millətin gələcəyi uşaqlardır. Azərbaycan dövləti də daim uşaqların sağlam böyüməsi, yaxud yaxşı oxuması və hərtərəfli inkişafının qayğısına qalmışdır.

Körpə qığıltısını ən gözəl himn, ana laylasını ən əziz nəğmə adlandıranlar heç bir ritorika və pafosa yol verməyiblər. Uşaq insan ömrünün bəzəyi, ailənin səadəti, xalqın sabahıdır. “Uşaqlar bizim gələcəyimizdir” deyimi də çox səslənmiş, olsa belə, həmişə, bütün zamanlarda aktual və mənalıdır.

Bu vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxanaları üçün nəzərdə tutulmuşdur. Bu metodik vəzait BMT-nin Uşaq Hüquqları Konvensiyası, həmçinin insan hüquqları bazasında uşaq hüquqlarının öyrənilməsi və tədrisinin həyata keçirilməsi haqqında məlumatları özündə əks etdirir.

## Giriş

***Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, Öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.***

**Ulu öndər Heydər Əliyev**

Uşaqlar insan hüquqları subyekti olaraq beynalxalq səviyyədə diqqət mərkəzindədirlər. Onların problemlərinin həlli, hüquqlarının və ən yaxşı maraqlarının müdafiəsi milli və beynəlxalq səviyyədə 10 dekabr 1948-ci ildə isə BMT-də Ümumdünya İnsan Bəyannaməsi qəbul edildi və dünyadaki bütün insanların malik olduqları əsas hüquqların həm da uşaqlara şamil olunduğu bəyan edildi. Bu baxımdan 1950-ci ildə Uşaq hüquqlarına dair ilk sənədin layihəsi hazırlandı. BMT-nin üzvü olan dövlətlərin nümayəndələri bir neçə il onu müzakirə etdilər. Beləliklə də, mövcud uşaq hüquqları ideyaları öz inkişaf mərhələsinə qədəm qoydu. 20 noyabr 1959-ci ilda isə uzun sürən müzakirələrdən sonra BMT tərəfindən Usaq Hüquqları Bəyannaməsi qəbul edildi. Bu bəyannamə bütün dövlətlər üçün tövsiyə xarakteri daşıyırdı, ölkələrin milli qanunvericiliyinə təsir etmir və on hüququ özündə birləşdirirdi. Bəyannamə dövlətlər tərəfindən qəbul edilmir və sənəd qarşısında hər hansı öhdəlik götürülmür, sadəcə üzv dövlətlər öz ölkələrində həmin tövsiyədən faydalanırlar. Hər halda onların gələcək fəaliyyət istiqamətləri üçün tövsiyə xarakteri daşıyan bu sənəd uşaq hüquqlarının inkişafı üçün yeni mərhələ açdı. BMT-nin təşəbbüsü ilə 1979-cu il dünyada “Uşaq ili” kimi qeyd olundu. Hər yerdə uşaq hüquqları barəsində danışıldı, bu barədə müzakirələr

keçirildi. Uşaqların mənafeyi naminə, bu hüquqların daha detallı işlənib hazırlanmasını və ən əsası, onları məcburi hüquqi qüvvə daşımasını getdikcə daha çox insan arzulamağa başladı. Bu isə özlüyündə insan zəkasında yeni baxışların yaranmasına, yeni dövrün formalaşmasına təkan verdi. Nəhayət 20 noyabr 1989-cu ildə BMT-nin Baş Məclisi Uşaq hüquqları haqqında Konvensiyanı yekdilliklə qəbul etdi. O vaxtdan indiyədək bütün dünya dövlətləri (yalnız ikisi, ABŞ və Somali istisna olunmaqla) bu Konvensiyanı qəbul etmişdir. Konvensiyanı imzalamaqla onlar öz ölkələrini uşaq hüquqları sahəsində maarifləndirməyə, bu hüquqları öz ölkələrində tətbiq etməyə, o cümlədən uşaqların müdafiəsinə xüsusi diqqət yetirməyi öz üzərilərinə öhdəlik götürdülər. Konvensiya 1990-cı ildə 20 dövlətin ratifikasiyasından sonra qüvvəyə mindi və imzalanmaq üçün bütün dövlətlərə açıq elan olundu. UHK artıq 191 ölkə yəni BMT-nin tərkibində olan ABŞ və Somali istisna olmaqla bütün ölkələr tərəfindən ratifikasiya olunmuşdur. ABŞ milli qanunvericiliyinin uşaqlar üçün daha geniş hüquqlar nəzərdə tutduğunu, Somali isə ölkəsində müharibə va münaqişələrin davam etdiyindən uşaq hüquqlarının həyata keçirilməsinə dair öhdəlikləri yerinə yetirə bilməyəcəyini bəyan edərək UHK-na qoşulmamışdır. Azərbaycan 2 mart 1992-ci il tarixdə BMT-yə üzv olmuş, həmin il UHK-ya qoşulmuş və ilk hesabatını 1995-ci ildə Uşaq Hüquqları Komitəsinə təqdim etdikdən sonra 1997-ci ildə həmin qurum hesabata baxaraq Azərbaycan hökumətinə yekun tövsiyələrini vermişdir. Ölkəmiz öz ikinci va üçüncü birləşdirilmiş hesabatlarını isə 2004-cü ilin əvvəlində təqdim etmiş, son hesabat üzrə 2006-cı ilin yanvar ayında Komitə ölkəmizə tövsiyələrini göndərmişdir.

## Uşaq Hüquqları Konvensiyasının bölündüyü kateqoriyalar

Yaşamaq hüquqlari: Bu kateqoriyaya uşaqların yaxşı yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları aiddir. Bura adekvat yaşayış standartları: qida, sığınacaq va tibbi yardıma malik olmaq kimi hüquqlar aiddir.

Müdafiə hüquqları: Bu hüquqlar uşaqların müxtəlif növ zorakılıq və istismardan qorumalarını, onların pis rəftar və hörmətsizlikdən müdafiəsindən ibarətdir. Məsələn: qaçqın və məcburi köçkün uşaqlara xüsusi qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı və digər hallardan uzaq tutulma və qarşısının alınması kimi məsələləri əhatə edir.

İnkişaf hüquqları: Bu hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Buraya, təhsil hüququ, istirahət hüququ, mədəni tədbirlərə cəlb edilmək və iştirak etmək, məlumat əldə etmək, fikir, vicdan və din azadlıqları və s. aiddir.

İştirak hüquqları: Bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətin həyatında fəal iştirak etməyə, assosiasiya və təşkilatlarda birləşmək imkanı yaradır. Bunlar: fikir və söz azadlığı, ictimai təşkilatlarda birləşmək və assosiasiyalar yaratmaq, dinc yığıncaqlar keçirmək və s. məsələləri əhatə edir.

Ölkə Prezidentin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının və bu sənədin məntiqi davamı olaraq 27 dekabr 2011-ci il tarixdə Azərbaycan Respublikasında İnsan hüquq va azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının qəbul edilməsi uşaq hüquqlarının səmərəli şəkildə həyata keçirilməsinə böyük tövhə verməkdədir. Qəbul edilmiş bu sənədlərdə uşaq hüquqlarının təbliği və müdafiəsi

ilə bağlı bir sıra mühüm bəndlər, o cümlədən ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi daxil edilib. 2012-ci il 8 may tarixdə isə ölkə Prezidentinin fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası" da təsdiq edilib. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır.

**Uşağın maraqlarının daha yaxşı təmin edilməsi prinsipinə dair qərarların çıxarılması**

Uşağın maraqlarının daha yaxş təmini prinsipinə dair qərarların çıxarılması zamanı aşağdakılar nəzərə alınmalıdır:

1. Onların müdafiəsinə əmin olmaq - fiziki və hüquqi cəhətdən:
2. Onlara göstərilən qayğı həm fiziki həm də mənəvi inkişafa

imkan yaradir;

3. Onların ardıcıl inkişafını təmin edir (sosial, psixoloji, təhsil və fiziki inkişaf və onların yaxın və uzaq nəticələri)
4. Onların qabiliyyət va imkanlarını nəzərə alaraq, qərarların çıxarılması prosesində iştirak etməsinin təmini.
5. Onların şifahi və təhlüksizliyini hər şeydən üstün tutmaq.



## Uşaqlar nə üçün öz hüquqlarını bilməlidirlər?

Hər bir cəmiyyət istəyir ki, onun uşaqları böyüyərək məsuliyyətli və layiqli vətandaş kimi yetişsinlər və cəmiyyətin inkişafında öz əvəsiz rollarını oynaya bilsinlər. Lakin hələ də dünyanın çox yerlərində uşaqlar öz hüquqlarından məhrum olur və ya onlardan istifadə edə bilmirlər. Bunun nəticəsində də sözün əsl mənasında, tam inkişaf və iştirakdan məhrum olurlar.

Həm inkişaf etmiş, həm da inkişafda olan ölkələrdə uşaqlar hər gün küçə pozuntuları, narkotik maddələrdən məcburi istifadə, zorakılıq və s. təzyiqlərə məruz qalır. Onlar çox vaxt uzunmüddətli işlərdə istirahətsiz çalışır, buda onların səhhətlərinə mənfi təsir göstərir. Bütün dünyada milyonlarla uşaq tam təhsil almaqdan məhrum olur. Bu proses xüsusilə əlil, etnik milliyətlərdən olan uşaqlara daha kəskin təsir göstərir.

Hələ da çoxlu sayda uşaq əslində qarşısı alına bilən xəstəliklərdən ölür. Yeməməzlik, sanitar qaydalara riayət olunmaması və təmiz suyun çatışmazlığı böyük problem kimi qalmaqdadır.

Bir çox ölkələrdə məktəb yaşlı uşaqlar hərbi qruplara qoşulmağa, zorakılığa və cəzaya məruz qalır, hüquqi qanunvericilik bazasının zəifliyindən əziyyət çəkirlər. Hüquq və ehtiyacları ödənilməyən uşaqlar layiqli, məsuliyyətli vatandaş olub digərlərinin hüquqlarına da hörmət etməyəcəklər.

## Keçiriləcək tədbirlər

Uşaqlar bizim gələcəyimizdir və ölkəmizin gələcəyi onların əlindədir, onları müdafiə etmək hər bir kəsin borcudur. Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlər həyata keçirilir. Ümummilli liderimiz Heydər Əliyevin məqsədyönlü siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, habelə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın böyük diqqəti nəticəsində, digər hüquqlarla yanaşı, uşaq hüquqlarının müdafiəsinə və təbliğinə yönəlmiş mühüm tədbirlər həyata keçirilir. Bu sahədə genişmiqyaslı işlər, fondun həyata keçirdiyi layihələr məhz uşaqların fiziki və mənəvi sağlamlığı, yetkin bir şəkildə formalaşması istiqamətində böyük işlər görülür.

Belə tədbirlərin keçirilməsində F.Köçərli adına Respublika Uşaq Kitabxanası həmişə fəal iştirak etmişdir. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar hər il olduğu kimi, bu il də tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planın geniş və maraqlı olması üçün metodist əlindən gələn köməkliyi göstərir. Bunun üçün metodist öncədən məktəb və bağçalarla əlaqə saxlamalı, uşaqları kitabxanada keçirilən hər bir tədbirə dəvət etməlidir. Uşaqlar bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir. Məhz buna görə də belə tədbirlərin həyata keçirilməsi istiqamətində əlimizdən gələni etməliyik.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Uşaqların səsi” adlı əyləncəli musiqi müsabiqəsi həyata keçirildi. Musiqi müsabiqəsini təşkil etməkdə məqsəd uşaqları ilk növbədə uşaq mahnıları ilə tanış etmək və onların vaxtlarını əyləncəli keçirməklə, xoş hal-əhval yaratmaqdan ibarət idi. Tədbirdə

adlarını qeyd etdiyimiz mahnılar uşaqlar tərəfindən ifa edilə bilər.

Məsələn: “Qırmızı şar”, “Oyun oyuncaqlarım”, “Oynaq topum”, “Nənəm evdə qalıb tək”, “Nağara”, “Mənim gülüm”, “Mənim dəcəl buzovum”, “Məktəbə yazdırsana”, “Kukla” “İdman” “Heyvanların qonaqlığı”, “Baxçamız Bizim”, “Gəmi” “Uşaqlar sevinsin həmişə”, “Vətənim” “Can bala can”, “Şən mahnı”, “Qatar gəlir uzaqdan”, “Əziz ana can ana”, “Kəndimiz”, “Bip Bipin nəğməsi”, “Alqışla”, “Çinarlar”, “Güllərim”, “Hər yerdən vətən yaxşı”, “Yağsana qar”, “Topumun 7 rəngi var”, “Salam ay gözəl yay”, “Nənəm nənəm, ay nənəm”, “Sülh nəğməsi”, “Qızıl lalədir adım” , “Nar giləsiyəm”, “Oyan oğlum” və.s Gəlin musiqisi Oktay Rəcəbov, sözləri Məmməd İsmayılova aid olan "Uşaqlar sevinsin həmişə" mahnısını sizlərə təqdim edək.

**I iştirakçı**

Bu dünya hamıya beşikdir,
Bu dünya hamıya anadır.
Uşaqlar dünyanın sabahı,
Uşaqlar sabaha can atır.

Nəqərat:

Arzular gül açıb güllənsin.
Torpaqlar sevinsin həmişə
Günəşə dil açıb dillənsin,
Uşaqlar sevinsin həmişə.

**II iştirakçı**

Sülh olsun, yer üzü gül olsun,
Uşaqlar böyüsün firavan,
Günəşin nuruyla yuyulsun,
Bu yerlər, bu göylər, bu cahan.

Nəqərat:

Arzular gül açıb güllənsin.
Torpaqlar sevinsin həmişə
Günəşə dil açıb dillənsin,
Uşaqlar sevinsin həmişə.

**III iştirakçı**

Böyüklər, bəs kimdən sorulsun,
Cavabı suallı uşaqlar,
Beləcə böyüyüb boy atsın,
Atalı-analı uşaqlar.

Nəqərat:

Arzular gül açıb güllənsin.
Torpaqlar sevinsin həmişə
Günəşə dil açıb dillənsi
Uşaqlar sevinsin həmişə.

Metodist uşaq mahnılarının tarixi, onun uşaqlar üçün səciyyəvi olan sağlam gülüş, məzhəkə və zarafat əsasında formalaşmasından söhbət açır. Uşaqların sevimli mahnısı olan "Cücələrim" mahnısının tarixi haqqında qısa və maraqlı məlumat verir. O, qeyd edir: "Cücələrim" in qəribə taleyi olub. Mahnı yazılandan düz 10 il sonra məşhurlaşıb. 1949-cu ildə bəstəkar Qəmbər Hüseynli o dönəmlər uşaq şeirləri yazan Tofiq Mütəllibova bir musiqi dinlədir və ondan bu musiqiyə söz yazmasını xahiş edir. Mahnının ilk ifaçısı, Arif Qazıyev olmuşdur. Mahnının ulduzu düz 10 il sonra parlayır. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında "Cücələrim"i aktrisa Suğra Bağırzadə

oxuyur. Mahnı tezliklə dillər əzbərinə çevrilir, sovetlər məkanını aşaraq bütün dünyaya yayılır. Müxtəlif dillərə çevrilir. Hətta “Dünyanın ən yaxşı uşaq mahnıları” albomuna daxil edilir. Cücələrim" dünyanın bir sıra dillərində uşaqların dilinin əzbəri olan mahnılardan biridir. Uşaqların sevimlisi olan "Düşərsən, əlimə" silsilə cizgi filminin seriyalarından birində də bu mahnı məhz Azərbaycan dilində səslənir.

https://az.wikipedia.org/wiki/C%C3%BCc%C9%99l%C9%99rim_(mahn%C4%B1)

Xüsusi kostyumda olan iştirakçılar səhnəyə çıxıb xorla “Cücələrim" mahnısını ifa etməyə başlıyırlar.

Cib-cib cücələrim.
Cib-cib-cib-cib cücələrim.
Mənim qəşəng cücələrim,
Tükü ipək cücələrim.

Gözləyirəm tez gəliniz,
Göy çəməndə dincəliniz.
Ay qəşəng cücələrim,
Tükü ipək cücələrim,
Mənim göyçək cücələrim.

Cib-cib cücələrim.
Cib-cib-cib-cib cücələrim.

Nə yesəniz mən verərəm,
Su verərəm, dən verərəm
Ay qəşəng cücələrim,
Tükü ipək cücələrim,
Mənim göyçək cücələrim.

Cib-cib cücələrim.
Cib-cib-cib-cib cücələrim.

Arzum budur boy atasız,
Ananıza tez çatasız.
Ay qəşəng cücələrim,
Tükü ipək cücələrim,
Mənim göyçək cücələrim.



## Görkəmli şəxsiyyətlərin uşaqlar haqqında söylədikləri fikirlər

Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilməlidir.

**Heydər Əliyev**

Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir.

**İlham Əliyev**

Uşaqları sevən həyatı da sevər.

**Fyodor Dostoyevski**

Övladlarınızı dövrünüz üçün deyil, onların dövrü üçün yetişdirin.

**Hz.Əli**

Tərbiyə ana qucağından başlar körpəyə söylənən hər kəlmə, onun şəxsiyyət binasına qoyulan bir kərpicdir.

**Namiq Kamal**

Kiçik uşaqların dərdini kiçik görməməli.

**Əbülqasım Firdovsi**

Uşaqlarına susmağı öyrət, danışmağı onlar özü də öyrənə bilər.

**Bencamin Franklin**

Saxsıdakı bir çiçək belə, yaşamaq üçün diqqət və sevgiyə ehtiyac duyduğu halda, bir uşağın sadəcə qarnının tox olması, isti bir evinin olması sağlam şəkildə böyüməsi üçün yetərlimidir?

**Naşide Gökbudak**

Uşaqda təmiz, idrakı qüvvələrdən ən əvvəl utanmaq, həya əlamətləri özünü göstərir. Deməli, diqqət edilməli, fikir verilməlidir: əgər uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu, onun nəcibliyinə sübutdur; bu, o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib, gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə xüsusi fikir verməli, heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir.

**Nəsirəddin Tusi**

Kim ki, heç vaxt uşaq olmayıb, heç vaxt böyük də olmayacaq.

**Çarli Çaplin**

İnsanlar uşaqkən daha xoşbəxt olurlar, çünki hər zaman olduqları kimi davranırlar.

**Platon**

Uşaqlar məktəbdə öyrənmək üçün deyil, qiymət almaq üçün oxuyurlar.

Nəticədə zehni çöp bilgiylə doldurulmuş 'savadlı' gənclər öyrəndiklərinin mində birini belə həyatda istifadə edə bilmir.

**Səbuhi Quluzadə**

Nə vaxtsa olduğun və hələ də daxilində mövcud olan uşağın səsinə qulmaq asmaq lazımdır. O, sehirli anlara çatmağa səbəb olur. Bəli, biz onun hönkürtüsünü kəsə bilərik, amma onun səsini boğmaq - əsla.

**Paulo Koelyo**

Uşağı bütə döndərmək olmaz, yoxsa böyüyəndə qurbanlar tələb edər.

**Üzeyir Hacıbəyli**












1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı kitabxanalarda rəsm müsabiqəsinin təşkili də məqsədəuyğundur. Müsabiqə üçün uşaqlara 10 gün müddətində bu mövzuda rəsm əsərləri çəkmək tapşırılır. Ən yaxşı rəsm əsəri kitabxananın rəhbərliyi tərəfindən mükafatlandırılır.
















## Kitab sərgisi













NADİR ADİLOV
MÜASİR BEYNƏLXALQ HÜQUQ VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNDƏ UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ
(Nəzəri və praktiki məsələlər)
BAKI-2010


UŞAQ HÜQUQLARI
VƏ ONLARIN TƏDRİSİ
Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq


Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)
UŞAQ HÜQUQLARI
HAMI ÜÇÜN


"ÜMİDLİ GƏLƏCƏK" GƏNCLƏR TƏŞKİLATI
İNSAN VƏ UŞAQ HÜQUQLARININ AVROPA VƏ BMT SİSTEMİ ÇƏRÇİVƏSİNDƏ MÜDAFİƏSİ MEXANİZMLƏRİ
Механизмы защиты прав человека и ребёнка в рамках Организации Объединенных Наций и Совета Европы
Avropa Şurası




**“Uşaq- hüquq dünyasında” adlı tədbir** 1 iyun 2022-ci il tarixində F.Köçərli adına Respublika uşaq kitabxanası, Binəqədi rayonu 267 nömrəli məktəb liseyinin 5- ci sinif şagirdləri ilə Uşaq hüquq aylığı çərçivəsində “Uşaq- hüquq dünyasında” adlı tədbir keçirdi. Tədbirdən əvvəl kitabxananın rəhbərliyi tədbiri açaraq “1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü” münasibətilə uşaqları təbrik etdi, onlara xoş arzularını çatdırdı. Azərbaycanda uşaq problemləri həllinin dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə daim uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Daha sonra oxucular kitabxanada təşkil olunmuş “Mənim hüquqlarım məni qoruyur” adlı sərgi ilə tanış oldular. Ombudsman aparatının nümayəndələri şagirdlərə uşaq hüquqları haqqında geniş məlumat verdi. Tədbirdə şagirdlər müxtəlif maarifləndirici uşaq hüquqlarına dair tapşırıqları xüsusi fəallıqla yerinə yetirdilər. Qeyd edək ki, tədbir şagirdlərin uşaq hüquqi biliyinin artırılmasına yönəlmişdi. Tədbirdə məktəblilər 2 saatlıq əyləncəli proqramla çıxış etdilər. Uşaqların təqdim etdiyi bədii kompozisiya, nağıl qəhrəmanlarının çıxışları, şən oyunlar uşaqların sevincinə sevinc qatdı. Uşaq evinin sakinləri balacaların

ifasında təqdim olunan Misir şahzadəsi Kleopatranın nağılını heyranlıqla izlədilər. Müxtəlif musiqilər səsləndi. Uşaqlar da öz bacarıqlarını nümayiş etdirib, rəqslərlə çıxış etdilər.Tədbir iştirakçıları daim qayğıya, diqqətə və xoş bir təbəssümə ehtiyacı olan uşaqlara gözəl gün yaşatdılar. Tədbirdə uşaqlara hədiyyələr təqdim edildi. Kitabxananın direktor müavini uşaqları bir daha bayram münasibəti ilə təbrik edib, onlara 100 ədəd jurnal və kitab hədiyyə etdi. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan gələcəyin qurucusu olacaq uşaqların sabahı üçün böyük tədbirlər görür, dünyanın işıqlı sabahını təmin edir

F. Köçərli adına kitabxanada keçiirlən bu tədbirin Respublika ərazisində yerləşən MKS-in kitabxanalarında keçirilməsi məqsədə uyğundur. F.Köçərli kitabxanasında keçitrilən tədbirdən şəkilləri sizə təqdim edirik.





**“Uşaqsız ev susuz dəyirmana bənzəyir”**

Kiçik dövlət sayılan ailənin sağlam, fiziki cəhətdən gümrah, mənəvi cəhətdən kamil olması günümüzün vacib məsələlərindəndir. Bu vacib məsələnin həlli üçün ilk növbədə, ailə, bağça, məktəb, ali təhsil ocaqları, ümumilikdə bütün cəmiyyət var-qüvvəsini səfərbər edir. Uşaqları kiçik yaşlarından düzgün tərbiyə etmək, onların əqli və fiziki imkanlarını yüksək səviyyədə inkişaf

etdirmək, gələcəkdə vətənə, xalqa layiq övlad kimi yetişdirmək ən vacib amildir. Uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsi, onların inkişafına göstərilən diqqət, gənc nəslin üzləşdiyi problemlərin həlli istiqamətində atılan məqsədyönlü addımlar, gördüyü tədbirlər dövlətimizin əsas prioritet vəzifələrindəndir.

Aparıcı: Əziz qonaqlar, əziz uşaqlar sizi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında görməyimizə çox şadıq. Bu gün Azərbaycan uşaqlarının şənlik, xoşbəxtlik və gələcəyə ümid günüdür. Bu bayramı F. Köçərli adına Respublika Uşaq Kitabxanası hər il möhtəşəm şəkildə qeyd edir. Uşaq bayramı münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası bayram əhvali-ruhiyyəsi ilə bəzədilir. Kitabxana şarlar, gül dəstələri, əl işləri sərgiləri ilə bəzədilir. Kitabxanamızın nağıl otağında Çarlz Dikkensin "Oliver Tvinstin macəraları" kitabının müzakirəsi keçirilməsi məqsədəuyğundur.




**I aparıcı:** "Oliver Tvist" romanı məşhur ingilis yazıçısı Çarlz Dikkensin yaradıcılığında müstasna yer tutur. Kitab "Şərq-Qərb"nəşriyyatında 2014-cü ildə, 616 səhifə həcmində nəşr olunmuşdur. Əsər dərin ictimai məzmunu, həyat həqiqətlərini düzgün göstərməsi və bədii vüsəti etibarilə dünya ədəbiyyatında geniş şöhrət qazanmışdır. Öz zəmanəsinin ictimai mənzərəsini geniş şəkildə əks etdirən, kapitalist-burjua şəraitində yoxsulların ağır vəziyyətini, xüsusən səfillərin va kiçikyaşlı uşaqların ehtiyac üzündən çəkdiyi müsibətləri inandırıcı şəkildə təsvir edən bu roman XIX asr ingilis ədəbiyyatında tənqidi realizmin ən gözəl nümünələrindən biri sayılır və yarandığı vaxtdan indiyə qədər öz bədii təsir gücünü,

idraki əhəmiyyətini itirməyən sənət əsəri kimi diqqəti cəlb edir, müxtəlif xalqların dillərinə tərcümə olunur.

**II aparıcı:**"Oliver Tvist" də göstərilən eybəcərliklər, dərin ziddiyyətlər hələ də bir çox xalqların həyatında dəhşətli fəlakətlər törədir, milyonlarla insanları aclıq, yoxsulluq va səfalət içində boğur."Oliver Tvist" əsərinin sonunda xoşbəxt həyatın şüaları Dikkens tərəfindən xeyirxahlıq və rəhmdillilik cizgilərində verilsə da, burada təsadüflər müəyyən rol oynasa da, əsərin əsas mahiyyəti öz dövrünün burjua mühitini bütün çılpaqlığı ilə göstərməsindədir, tənqid və ifşanın böyük hayat həqiqətlərini üzə çıxarmasındadır. Əsəri yaşadan, onun bədii təsir gücünü artiran, bu gün bizim üçün də qiymətli edən və sevdirən məhz bu hayat həqiqətidir, əsərin realist pafosudur, ictimai eybəcərliyi ifşa qüdrətidir. "Oliver Tvist" bu mənada təkcə kiçikyaşlıların və yeniyetmələrin burjua cəmiyyəti şəraitindəki vəziyyətini göstərməklə qalmır, eyni zamanda burjua-kapitalist münasibətlərinin bütün mənfur və dəhşətli mahiyyətini, burjua cəmiyyətinin insanlığa yad və riyakar təbiətini üzə çıxarır və çox tipik, inandırıcı bədii lövhələrdə oxuculara çatdırır.




"Oliver Tvist" əsərində nəinki yazıçının yaşadığı dövr və mühit, eyni zamanda o özü də görünür. İnsanı eybəcərləşdirən, mənəvi cəhətdən şikəst edən bütün ictimai qaydalara qarşı öz etirazını bildirən Dikkens bu romanda incə qəlbli, bə şəriyyətə xoşbəxtlik və səadət arzu edən gözəl bir insan, böyük istedad sahibi kimi canlanır. Aydın hiss olunur ki, o, insanları böyük məhəbbətlə sevmiş və çalışmışdır ki, sənətin ecazkar bədii gücü ilə onları daha da kamilləşdirsin, xoşbəxt etsin. Bu mənada Dikkens özü də hörmət və məhəbbətə layiq sənətkardır.

Kitabxanaçı sonda uşaqlara Çarlz Dikkensin “Oliver Tvinstin macəraları” kitabı haqqında hazırlanmış musiqili video-çarxı

uşaqlara təqdim edir. Video-çarxdan bir neçə şəkili sizə təqdim edirik.

**I aparıcı:** Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir və buna görə də dövlət uşağın sağ qalmasını və inkişafını təmin etməyə borcludur. Konstitusiyamız hər kəsin yaşamaq hüququ olduğunu bəyan edərək, ölkəmizdə ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqlan ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq va bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək hüququna təminat verir.Uşaq Hüquqları haqqında Konvensiyanı da iştirakçısı olan dövlətlər tanınan hüquqları həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tədbirlərini, inzibati və digər tədbirləri görürlər. Uşaqların hüquqlarınımm qorunması ilə bağlı müxtəlif mövuzuda kitabların, hekayə və nağılların yazılması uşaqlara daha öz hüquqları ilə tanış olmağa kömək edir Belə nağıl kitabalrından biri də Sevinc Nuruqızının “Melisa” adlı nağıl kitabıdır. Uşaq kitabxanalarında “Melisa” kitabının müzakirəsinin  keçirilməsi də məqsədəuyğundur.




**I aparıcı:**Nuruqizi S. Melisa (nağl-povest). Bakı, Təhsil, 2021, 112 səhifə həcmində olan Sevinc Nuruqizinin "Melisa" əsəri həyatı bütün həqiqətləri və doğruları ilə göz önündə canlandırır. Əsər oxucunu öz çəhrayı dünyasından alıb cürbəcür çalarlarla dolu dünyaya səyahətə aparır. Əsərdə ön planda insandır- öz sevinci-kədəri, sevgisi-nifrəti, doğrusu-yalanı ilə... Və maraqlısı budur ki insan obrazları bir gəlinciyin düşüncələri ilə bir-bir açılır, saf-çürük edilir, yaxşıya pisə bölünür. Bir sözlə "Melisa" öz gənc oxucusuna həyatı öyrədir... Amma hər bir halda son söz oxucunundur.  Respublikamızda ilk dəfə işıq üzü görən "Melisa" əsəri Türkiyənin ILESAM-Akçag Usaq ədəbiyyatı roman, hekayə

va nağıl-2018 (kitab dosyası) müsabiqasində roman janrında birinci yerin sahibi olmuşdur.

**II aparıcı:**İstedadlı uşaq yazıçısı Sevinc Nuruqızının “Melisa” nağıl-romanı Türkiyədə keçirilən 9. İlesam-Akçağ uşaq ədəbiyyatı roman, hekayə və nağıl - 2018 müsabiqəsində roman nominasiyasının qalibi olub.

Sevinc Nuruqızının “Melisa” nağıl-romanı 9-14 yaş uşaqların mütaliəsi üçün nəzərdə tutulub. Əsərdə balaca oxucular həyat həqiqətlərini əks etdirən, cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən insanlar xarakterik obrazları, müxtəlif ailələrdə yaşayan həmyaşıdlarının həyatı ilə tanış olur, valideyn himayəsindən məhrum olan uşaqların çətinliklərlə apardığı mübarizəni izləyirlər. Kitabı Türkiyə türkcəsinə İmdat Avşar tərcümə edib, illüstrasiyaların müəllifi gənc rəssam Tahirə Quliyevadır.

Kitabda "Melisa" ilə yanaşı " Ciya ilə iki gün", "İpəkcənin macəraları" və "Ay, yoxsa yemiş dilimi" əsərləri də daxil edilib.

https://azertag.az/xeber/Usaq_yazichisi_Sevinc_Nuruqizinin_Melisa_nagil_romani_Turkiyede_chap_olunub-1737969

https://drive.google.com/file/d/1lawQUoNlE8WbaRzpsQzBe1O_KDHzzS6r/view

https://drive.google.com/file/d/1G50kpmuKKpi6rXxQRaVzPoHvU4l8RpQy/view

https://drive.google.com/file/d/1lcCxaKhtgsV2vx08JNky9-ijPDwNx_w4/view

https://drive.google.com/file/d/1mW26YAanI4fLv8OCsLN3u2iyiIi1bxg4/view




Mövzu ilə bağlı kitabxanada **“Uşaq hüquqları dünya xalqlarının nağıllarında”** adlı kitabın müzakirəsinin keçirilməsi çox yaxşı olar. Kitab Rusiya pediatrlarının təşəbbüsü və EPA/UNEPSA Avropa Pediatriya Assosiasiyasının iştirakı ilə“ПедиатрЪ” nəşriyyatı tərəfi ndən BMT-nin Uşaq hüquqları Konvensiyasına dair müxtəllif dillərdə illüstrasiyalı ikidilli tərtibli kitablar dərc edilir. Bu layihə çərçivəsində ilk kitab rus və fransız dillərində nəşr olunmuşdur. Layihənin məqsədi — ümumbəşər dəyərləri, xüsusilə uşaq hüquqlarına dair bilgiləri təbliğ etməkdir. Layihə uşaqlar üçün daha asan və əlverişli nağıl şəklində reallaşdırılıbdır. Uşaq hüquqlarına dair BMT Konvensiyası kitabda orijinal şəkildə izah edilmişdir. BMT Konvensiyasının mətni dəyişiklik edilmədən kitabda verilibdir. Kitabın 1-ci Hissəsi hər bir maddəni (1–41-ci maddələr) illüstrasiya edən xüsusi olaraq seçilmiş və adaptasiya edilmiş şəkilli nağıllardan ibarətdir. II Hissə (42–54 maddələr) illüstrasiya olmadan verilmişdir, belə ki, Konvensiya maddələrinin cəmiyyət tərəfi ndən işlədilmə qaydaları

orada şərh olunubdur. 2014-cü ildə Rusiya pediatrlar assosiasiyasının təşəbüsü ilə və Avropa pediatrlar assosiasiyası tərəfi ndən reallaşdırılan rus-fransız layihəsi çərçivəsində “Права детей в сказках народов мира” adlı kitab dərc olunmuşdur.

Müxtəlif ölkələrdə fəaliyyət göstərən Pediatrlar Cəmiyyətlərini bu layihəyə cəlb edilməsi, Bu kitabın öz ana dillərində dərc olunması məqsədilə milli pediatrlar cəmiyyətlərinin həmin layihəyə cəlb edilməsi təşəbbüsü Assosiasiyanın İcra komitəsinin iclasında dəstəklənmişdir və 25 mart 2014 il tarixili iclasın protokolu ilə təsdiq edilmişdir. Bununla bağlı, Azərbaycanda 2016–2017-cı illərdə Azərbaycan Pediatrlar Assosiasiyasının üzvləri, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun pediatriya kafedrasının və K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutun əməkdaşları tərəfi ndən "Права детей в сказках народов мира" adlı kitaba azərbaycan nağılları əlavə edilərək. Həmçinin kitaba üç Azərbaycan nağılı əlavə edilmişdir. Biz əminik ki, təhsil — tərbiyyə məzmunlu bu unikal kitab böyüklərin müxtəlif ölkələrdə yaşayan uşaqların hüquqlarına

diqqət yetirməyə, onları qorumağa və xoşbəxt gələcəyini təmin etməyə köməklik edəcəkdir.




Kitabxanada **1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı sual və cavab** gecəsinin keçirilməsi də məqsədəuyğundur.Sual-cavab gecəsində iştirak edən oxucular bu mövzu ilə bağlı dolğun şəkildə məlumat toplamış olurlar.

**"Şən hazırcavablar"** adlı anket sorğusunu sizə təqdim edirik.

1. **Sual:**“ Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır” ifadəsinin müəllifi kimdir?

**Cavab:** Umummilli lider Heydər Əliyev.

2. **Sual:**Uşaqların Beynəlxalq Müdafiəsi Günü nə zaman qəbul olunmuşdur?

**Cavab:** 1950-ci il iyunun 1-də BMT Baş Assambleyasının təşkilatçılığı ilə keçirilən qadınların beynəlxalq konfransında iyunun 1-ni uşaqların müdafiəsinə həsr etmək qərara alınıb.

3. **Sual:**Uşaq hüquqları ilə əlaqədar olan beynəlxalq sənəd neçə ölkə tərəfindən təsdiq olunmuşdur?

**Cavab:**Hazırda uşaq hüquqları ilə əlaqədar olan beynəlxalq sənəd 193 ölkə tərəfindən təsdiq edilmiş olan Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Haqqında Konvensiyasıdır.

4. **Sual:** Azərbaycanda uşaqların müdafiəsi və onlara qayğı göstərilməsi ilə bağlı hansı qurum və təşkilatların adlarını sadalaya bilərsiniz?

**Cavab:**Azərbaycan Respublikasında uşaq siyasətinin həyata keçirilməsinə məsul əsas mərkəzi icra hakimiyyəti orqanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Komitə Azərbaycan Respublikası Prezidentinin 6 Fevral 2006-cı il tarixli Fərmanı ilə yaradılmışdır və ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən dövlət orqanıdır.

5. **Sual:**“Bir İyun gününüz mübarək olsun!” şeirinin müəllifi kimdir?

Mehriban balalar, əziz uşaqlar.Bir İyun gününüz mübarək olsun! Sülhlə, məhəbbətlə yansın ocaqlar, Qəlbiniz sevinclə, fərəhlə dolsun!

**Cavab:** Bu şeirin müəllifi Solmaz Şirindir.

6. **Sual:**Azərbaycanda dövlət uşaq siyasətinin əsas prinsipləri nədən ibarətdir?

**Cavab:** Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır.

7. **Sual:**Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu neçənci ildə qəbul olunub?

**Cavab:** Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının qanunu 19 may 1998-ci ildə qəbul olunub.

8. **Sual:**Uşaq Hüquqları Konvensiyasında uşaqlar üçün hansı hüquqlar qərara alınmışdır və bu hüququları neçə qrupa bölmək olar?

**Cavab:**Konvensiyada şərti olaraq bu hüquqları dörd qrupa bölmək olar. Bunlar – yaşamaq hüququ qrupu, inkişaf hüququ qrupu, müdafiə hüququ qrupu, iştirak hüququ qrupudur.

9. **Sual:** Hansı hüquqlarınızı tanıyırsınız? Sadalayın.

**Cavab:** Fikir azadlığı hüququ, ad və vətəndaşlıq almaq hüququ, məktəbə getmək və təhsil hüququ, tibbi yardım almaq hüququ, bərabərlik hüququ və s.

**11.Sual:** Uşaq Hüquqları ilə bağlı Heydər Əliyev Fondu nə kimi işlər görmüşdür?

**Cavab:** Uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək Heydər Əliyev Fondunun qarşıya qoyduğu əsas məqsədlərdəndir. Uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binalarının tikilməsi, uşaq bağçalarının inşası, yaxud bərpası, uşaq əyləncə mərkəzlərinin yaradılması sosial fəaliyyətin mahiyyətini təşkil edir.

**12.Sual:** Azərbaycanda "Uşaq ili" neçənci ildə elan olunmuşdur.

**Cavab:** 2009 - cu ildə Azərbaycanda "Uşaq ili" elan olunmuşdur.

**13.Sual:**Ölkəmizdə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" hansı qanun qəbul edilmişdir?

